*Peşə təhsili və insan kapitalı. Cild 5, №3, 2022, s.42-46*

# TƏHSİL MÜƏSSİSƏLƏRİNİN İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARI İLƏ TƏMİNATI



**Vüsalə Əlləzova,**
*Azərbaycan Milli Elmlər Akademiyasının*
*A.A.Bakıxanov adına Tarix İnstitutunun elmi işçisi*
*e-mail: vallazova@mail.ru*

**UOT:** 33

**Xülasə**. *Təlim prosesində informasiya-kommunikasiya texnologiyalarından istifadə olunması müasir təhsilin keyfiyyətinin yüksəldilməsində əhəmiyyətli amildir. Respublikamızda yüksək texnologiyalı milli iqtisadiyyatın qurulması dövlət siyasətinin əsas istiqamətinə çevrilmişdir. Bu da öz növbəsində təhsil sistemində informasiya-kommunikasiya texnologiyalarının tətbiqini zəruri etmişdir. Təhsil sisteminin başlıca vəzifələrindən biri təhsilalanlarda informasiya-kommunikasiya bacarığının, eləcə də müasir dünyanın yeni şərtlərinə uyğunlaşma bacarığının formalaşdırılmasıdır. Bu prosesin ardıcıl şəkildə inkişafı üçün respublikada xüsusi dövlət strategiyası və fəaliyyət planı həyata keçirilir.*

***Açar sözlər:*** *qloballaşma, təhsil strategiyası, islahat, İKT, ümumi təhsil.*
***Key words:*** *globalization, education strategy, reform, ICT, general education.*
***Ключевые слова:*** *глобализация, стратегия образования, реформа, ИКТ, общее образование.*

Müasir Azərbaycan təhsilinin informasiyalaşdırılması şəraitində ümumtəhsil məktəblərinin informasiya-kommunikasiya texnologiyaları ilə təmin edilməsi təhsil strategiyasının ən vacib tərəflərindən biridir. Bu da, ilk növbədə, müasir dünyada informasiya-kommunikasiya texnologiyalarının özünün yüksək status əldə etməsi ilə bağlıdır. Hazırda bütün dünyada təhsil sisteminin başlıca vəzifələrindən biri təhsilalanların informasiya-kommunikasiya bacarığının formalaşdırılması və müasir dünyanın yeni şərtlərinə uyğunlaşma bacarığının olmasıdır. İnformasiya-kommunikasiya bacarığı da, öz növbəsində, informasiya ilə işləmək (axtarış, toplama, təhlil və s.) qabiliyyətini və bu bacarığı praktikada tətbiq etməyi nəzərdə tutur. Araşdırmalar göstərir ki, "kütləvi İKT savadlılığının təmin olunmasının ölkəyə verdiyi fayda istənilən sənaye yeniliyinin verdiyi faydadan bir neçə dəfə artıqdır" [9, s.228].

Məsələnin digər vacib tərəfi isə təhsil sisteminin informasiya-kommunikasiya texnologiyaları ilə təmin edlməsi üçün xüsusi dövlət strategiyasının müəyyən edilməsidir. "Ümummilli lider Heydər Əliyev Azərbaycanda bütün sahələrin inkişafına diqqət yetirdiyi kimi, informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin dövlət siyasətində prioritet istiqamətə çevrilməsinə də zəmin yaratmışdır" [9, s.229]. Bu proses Azərbaycanda 2000-ci illərin əvvəllərindən etibarən daha böyük vüsət qazanmışdır. Xüsusilə Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 iyun tarixli, 168 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" və 2004-cü il 21 avqust tarixli, 355 nömrəli Sərəncamı ilə təsdiq edilmiş

"Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya-kommunikasiya texnologiyaları ilə təminatı Proqramı" (2005-2007-ci illər) həmin proses üçün böyük əhəmiyyətə malik olmuşdur. Hələ 1999-cu ildə qəbul olunmuş İslahat Proqramında "gənc nəslin informasiya-kommunikasiya texnologiyalarından istifadə vərdişlərinə yiyələnməsi" ən mühüm vəzifələrdən biri kimi qarşıya qoyulmuşdur [6]. Həmin illərdə müstəqilliyini yeni qazanmış respublikanın ümumtəhsil məktəblərinin maddi-texniki bazasının təchizatı ilə bağlı xeyli həlli zəruri olan məsələləri var idi. Belə ki, məktəblərdəki kompüter avadanlığının böyük əksəriyyəti fiziki və mənəvi cəhətdən köhnəlmiş, istifadə üçün yararsız vəziyyətə düşmüşdür. Ümumi sayı 4521 olan ümumtəhsil məktəblərində hər 1063 şagirdə 1 ədəd kompüter düşürdü və təlim xarakterli proqram təminatı da zəif idi [9, s.23,11]. Ümumi təhsilin mövcud dövlət standartlarında İnformatika və hesablama texnikasının əsasları fənninin tədrisi yalnız X və XI siniflərdə aparılırdı. Məktəblərin internet şəbəkəsinə qoşulmasında vahid koordinasiya sistemi yox idi və üstəlik informasiya-kommunikasiya texnologiyaları sahəsində ixtisaslı kadrlara da böyük ehtiyac var idi [4].

Bütün bu çatışmazlıqların aradan qaldırılması istiqamətində sonrakı illərdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi digər əlaqədar təşkilatlarla birlikdə təhsil sisteminin informasiyalaşdırılması sahəsində bir çox tədbirlər həyata keçirmiş, o cümlədən bütün təhsil pillələri üçün eksperimental proqramlar hazırlayıb təsdiq etmiş, öyrədici multimedia sistemlərini hazırlamağa başlamış, internetə qoşulan məktəblər şəbəkəsini genişləndirmiş, təhsilin idarə edilməsinin məlumat sisteminin, informasiya-kommunikasiya texnologiyalarının ümumtəhsil məktəblərində tətbiqi üzrə hazırlıq işlərini gücləndirmişdir. "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya-kommunikasiya texnologiyaları ilə təminatı Proqramı"nın (2005-2007-ci illər) əsas məqsədi də respublikamızda yeni informasiya texnologiyalarından istifadə etməklə təhsilin keyfiyyətini yüksəltməyə xidmət edən, bütün pillə və səviyyələrdə vətəndaşlara təhsil almaqla bərabər imkanları təmin edən, ölkə təhsil informasiya sisteminin dünya təhsil sisteminə inteqrasiyasına imkan verən vahid təhsil informasiya mühitini yaratmaq və əhalini informasiyalaşdırılmış cəmiyyətə hazırlamaq olmuşdur [4]. Adı çəkilən Proqram çərçivəsində 2005-2007-ci illərdə 3693 məktəb 31.677 kompüter, 1103 noutbuk və proyektor dəsti, 2059 UPS, 2060 çap qurğusu və digər İKT avadanlığı, 28.661 kompüter masası, 23.346 stul ilə təchiz olunmuş bu məktəblərdə 1722 kompüter sinfi yaradılmışdır. Nəticədə 2007-ci ilin sonunda ümumtəhsil məktəblərində hər 29 şagird 1 kompüter dəsti ilə təmin edilmişdir [9, s.232].

Proqramın həyata keçirilməsi gedişində Azərbaycan Respublikasının Təhsil Nazirliyi dünyanın qabaqcıl ölkələrinin təcrübəsindən yararlanmaq məqsədi ilə beynəlxalq elm və təhsil əlaqələrini də genişləndirmişdir. Belə ki, 1990-cı illərin sonundan 2000-ci illərin sonunadək olan müddətdə Elm və Təhsil Nazirliyi dünyanın 30-dək dövlətinin müvafiq qurumları ilə əlaqələr qurmuş, ABŞ, Fransa, Böyük Britaniya, Almaniya, Yaponiya, İsrail, Türkiyə, Ukrayna, Gürcüstan və digər ölkələrlə 70-dən çox birgə layihə və proqramlara imza atmışdır [10, s.356]. Dünya İqtisadi Forumu tərəfindən 2008-2009-cu illər üçün hazırlanmış "İnformasiya texnologiyalarının qlobal inkişafı haqqında hesabatın"da Azərbaycan 134 ölkə sırasında 60-cı yeri tutmaqla bir çox nüfuzlu ölkələri qabaqlamışdır və MDB-nin iştirakçısı olan dövlətlər arasında lider olmuşdur [5]. Bununla yanaşı, 2000-ci illərin əvvəllərində multimedia xarakterli dərsliklərin və digər tədris vasitələrinin işlənilməsi, yayılması və təhsil prosesində tətbiq olunması ləng gedirdi. Bu sahədə bir sıra tədbirlərin həyata keçirilməsinə, o cümlədən elektron tədris sistemlərinin formalaşdırılması istiqamətində əməli addımlar atılmasına baxmayaraq, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi üzrə elmi-metodiki bazanın təkmilləşdirilməsi, ümummilli səviyyədə vahid elektron təhsil məkanının təşəkkül tapması günün əsas tələbi idi. Təhsil sistemində informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun və elektron təhsil texnologiyalarının tətbiqinin daha da genişləndirilməsi, təhsildə idarəetmənin informasiyalaşdırılması və bu sahədə kadr potensialının gücləndirilməsi üçün "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı"nın qəbul edilməsi böyük addımlardan biri kimi dəyərləndirilə bilər. Proqram Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 17

fevral tarixli, 1146 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya" (2003-2012-ci illər) əsasında hazırlanmışdır [5].

"Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı"nın (2008-2012-ci illər) əsas məqsədi "təhsilin bütün pillələrində müasir informasiya-kommunikasiya texnologiyalarının səmərəli tətbiqi və istifadəsi ilə vahid ümummilli təhsil mühitinin formalaşdırılması və bu zəmində əhalinin bütün təbəqələri üçün keyfiyyətli təhsil almaq imkanlarının təmin edilməsi, habelə ölkənin təhsil sisteminin dünya təhsil məkanına inteqrasiya olunması üçün şərait yaradılması" olmuşdur [7]. Bu məqsədə nail olmaq üçün təhsil sistemində informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun inkişaf etdirilməsi, elektron təhsil texnologiyalarının tətbiqinin genişləndirilməsi, təhsil sistemində idarəetmənin informasiyalaşdırılması və bunlara müvafiq olaraq kadr potensialının gücləndirilməsi əsas vəzifələr olaraq görülmüşdür. Təhsil sistemində informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun inkişaf etdirilməsi "təhsil müəssisələrinin informasiya-kommunikasiya üzrə maddi-texniki bazasının təkmilləşdirilməsi, kompüter avadanlığı və digər zəruri rəqəmsal avadanlıqla təminat işinin yaxşılaşdırılması, təhsil müəssisələrinin korporativ şəbəkə infrastrukturunun, habelə şəbəkə infrastrukturunun idarəetmə və nəzarət sisteminin yaradılmasını", elektron təhsil texnologiyalarının tətbiqinin genişləndirilməsi isə "bütün fənlər üzrə müasir elektron elmi-metodiki vəsaitlər kompleksinin işlənilməsi və yayılması, elektron təhsil resursları bazasının yaradılması və tədris prosesinə inteqrasiyasını, ölkə daxilində distant təhsilin inkişaf etdirilməsi üzrə tədbirlərin həyata keçirilməsini, vahid təhsil portalının yaradılması və mütəmadi dəstəklənməsinin təmin olunmasını" nəzərdə tutmuşdur [7].

Təhsil sistemində idarəetmənin informasiyalaşdırılmasına gəlincə, bu vəzifənin həyata keçirilməsi üçün "təhsil sahəsinin idarə olunmasında və tənzimlənməsində vahid informasiya infrastrukturunun yaradılması, təhsilin idarə edilməsində informasiya sistemləri və texnologiyaların səmərəli tətbiqinin təmin edilməsi, təhsilin idarə olunmasının məlumat sistemlərinin (TİMS) inkişaf etdirilməsi" böyük əhəmiyyət daşımışdır [7]. Bu vəzifələrin yerinə yetirilməsi üçün müvafiq kadr potensialının olması da şərtdir və bu potensialı gücləndirmək üçün "təhsil sisteminin pedaqoji və inzibati-idarəetmə heyətinin informasiya-kommunikasiya texnologiyaları üzrə savadlılığının artırılmasına yönəldilmiş kompleks tədbirlərin həyata keçirilməsi, yeni metod və texnologiyalar vasitəsilə pedaqoji heyətin hazırlanma və ixtisasartırma sisteminin təkmilləşdirilməsi, yaradıcı və innovativ müəllimlərin obyektiv qiymətləndirilməsi və səmərəli motivasiyası sisteminin yaradılması" alt vəzifələr olaraq irəli sürülmüşdür [7].

Bu Proqramın həyata keçirilməsi təhsilin yenidən qurulması və davamlı inkişafı üçün əlverişli şərait yaratmışdır. 2010-cu illərin əvvəllərindən başlayaraq, adı çəkilən sahədə daha bir neçə hüquqi-normativ sənəd qəbul edilmiş, Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli, 13 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təsdiq edilmişdir. Strategiya "Azərbaycan Respublikasında keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında aparıcı mövqe tutan, səriştəli müəllim və təhsil menecerlərinə, qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılması üçün genişmiqyaslı tədbirləri" nəzərdə tutmuşdur. Beş strateji istiqamət üzrə nəzərdə tutulmuş strategiyanın dördüncü istiqaməti "müasir tələblərə uyğun və ömürboyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılmasını, təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyaları əsaslı təlim metodologiyasına uyğun infrastrukturun yaradılmasını, təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılmasını, distant təhsili" ehtiva etmişdir [1].

Qeyd edək ki, strategiyanın həyata keçirilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 yanvar tarixli, 995 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı "Fəaliyyət Planı" da təsdiq edilmişdir.

Fəaliyyət Planının 4.1 bəndi "Təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyaları əsaslı təlim metodologiyasının tələblərinə uyğun infrastrukturun yaradılması, hər bir təhsil

müəssisəsinin internetlə, ümumi orta təhsil səviyyəsində hər bir şagirdin elektron dərsliklər yüklənilmiş kompüter-planşetlə təmin olunması"nı nəzərdə tutmuşdur ki, bu da öz növbəsində:

*4.1.1. təhsil sisteminin informasiyalaşdırılması proqramına uyğun olaraq bütün təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun yaradılmasını;*

*4.1.2. hər bir təhsil müəssisəsinin internetlə təmin edilməsini;*

*4.1.3. ümumi orta təhsil səviyyəsində hər bir şagirdin elektron dərsliklər yüklənilmiş kompüter-planşetlə təmin edilməsini nəzərdə tutaraq 2015-2020-ci illəri ehtiva etmişdir [2].*

Fəaliyyət Planının 4.2 bəndi "Təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması" vəzifəsinin içərisində:

*4.2.1. təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması ilə bağlı təhsil pillələri üzrə dövlət proqramlarının layihəsinin hazırlanmasını (2016-2017);*

*4.2.2. təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması ilə bağlı təhsil pillələri üzrə dövlət proqramlarının təsdiq üçün təqdim edilməsini (2017);*

*4.2.3. təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması ilə bağlı təhsil pillələri üzrə dövlət proqramlarının həyata keçirilməsini (2018-2025);*

4.3. bəndi isə "distant təhsil, istedadlı şəxslər, sağlamlıq imkanları məhdud uşaqlar üçün təhsil və inkişaf, yaşlıların təhsili, peşə, ixtisas və təhsil məsələləri üzrə məsləhət xidmətləri göstərən regional universal mərkəzlərin yaradılması" vəzifəsinin içərisində:

*4.3.1. regionlarda universal mərkəzlərin yaradılması üzrə dövlət proqramı layihəsinin hazırlanmasını (2017-2018);*

*4.3.2. regionlarda universal mərkəzlərin yaradılması üzrə dövlət proqramının təsdiq üçün təqdim edilməsini (2019);*

*4.3.3. regionlarda universal mərkəzlərin yaradılması üzrə dövlət proqramının həyata keçirilməsini (2019-2024) nəzərdə tutmuşdur [2].*

Fəaliyyət Planında, həmçinin təhsillə bağlı media və internet resurslarının inkişafının təmin edilməsi (4,8); 2015-ci ildən başlayaraq, mütəmadi olaraq uşaq və gənclərin intellektual fəaliyyətlərinin dəstəklənməsi və cəmiyyətin inkişafında təhsilin rolunun daha dərindən dərk olunması məqsədi ilə onlayn "Təhsil" televiziyasının yaradılması (4,8,1); təhsilverənlər, təhsilalanlar və valideynlər üçün maarifləndirmə xarakterli portalların yaradılması, onlayn təlimlər, elektron dərsliklər, video resurslar, internet əsaslı intellektual oyunların hazırlanması (4,8,2); təhsilin inkişaf istiqamətlərinin düzgün başa düşülməsi üçün media işçilərinin bilik və bacarıqlarının inkişafına yönəlmiş təlimlərin təşkili, təhsil sahəsində çap, onlayn, audio və videomateriallarının hazırlanması üzrə müsabiqələrin təşkili (4,8,3) də əhəmiyyətli vəzifələr sırasında yer almışdır [2].

Qeyd edək ki, 2019-cu ilin dekabrında Çində COVİD-19 pandemiyasının aşkar edilməsi və 2020-ci il mart ayının 11-də Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən koronavirus pandemiyasının elan edilməsi dünyada təhsil sisteminin yeni səviyyəyə keçirilməsini, distant təhsilin yeganə təhsil növü kimi tətbiqini zəruri etdi. Bu, bir daha son iki onillikdə Azərbaycan Respublikasının həyata keçirmiş olduğu Təhsil Strategiyasının və bu strategiyanın həyata keçirilməsi üzrə "Fəaliyyət Planı"nın zamanında verilmiş və istənilən gözlənilməz şəraitdə təhsilin davam etdirilməsi imkanlarının təmini üçün şərait yaratdığını sübut etdi. 2020-2021-ci tədris ilində ümumi təhsillə bağlı aktual məsələlər və hədəflər barədə Azərbaycan Respublikası Təhsil nazirinin əmrində təhsil müəssisələrində proqram materiallarının şagirdlər tərəfindən mənimsənilməsi vəziyyətini diaqnostik qiymətləndirmə vasitəsilə öyrənərək çatışmazlıqların yeni tədris ilində intensiv tədris yolu ilə aradan qaldırılması, müasir dövrün əsas kompetensiyalarından sayılan müstəqil öyrənmə bacarıqlarının inkişafı məsələsinin pedaqoji heyətin, eləcə də valideynlərin diqqətinə çatdırılması, məsuliyyətli təhsilalanların formalaşdırılması, məsafədən öyrətmə və öyrənmənin metodikasının geniş təbliği, "Rəqəmsal bacarıqlar" və "STEAM" pilot layihələri tətbiq olunan təhsil müəssisələrində bu layihələrin icrası ilə bağlı əməli köməkliyin göstərilməsi qərara alınmışdır [8].

**Nəticə.** Respublikamızda təhsil müəssisələrinin müasir informasiya-kommunikasiya texnologiyaları ilə təmin edilməsi, onların kompleksli və sistemli tətbiqi sayəsində tədris prosesini daha effektiv təşkil etməyə istiqamətləndirmişdir. Müasir mərhələdə ölkədə təhsilin informasiyalaşdırılması prosesinin ən mühüm meyillərindən

biri müxtəlif texnologiyaların təhsil prosesinə inteqrasiya olunmasıdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli, 13 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası".
https://president.az/articles/9779

2. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 yanvar tarixli, 995 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı "Fəaliyyət Planı".
https://edu.gov.az/az/page/73/9964

3. Azərbaycan Respublikasında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.
https://edu.gov.az/az/page/451/18720

4. "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı" (2005-2007-ci illər).
https://edu.gov.az/az/page/83/601

5. "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə milli strategiya (2003-2012-ci illər)".
https://president.az/articles/564

6. "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı".
http://www.e-qanun.az/framework/5363

7. 2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı.
https://edu.gov.az/az/page/83/599

8. 2020-2021-ci tədris ilində ümumi təhsillə bağlı aktual məsələlər və hədəflər barədə Azərbaycan Respublikası Təhsil nazirinin əmri.
https://edu.gov.az/az/page/451/18945

9. Mərdanov M. Azərbaycan təhsil tarixi. III cild. Müstəqillik illəri. Bakı, Təhsil, 2011, 672 səh.

10. Talıbova M., Məmmədova M. Müasir təhsilimizdə informasiya-kommunikasiya texnologiyaları və treyninq proqramları. BDU, "Tarix və onun problemləri" jurnalı, 2013, №4, səh.353-361.

11. Ümumtəhsil məktəblərinin İKT ilə təminatı proqramı yerinə yetirilir. AZƏRTAC, 06.09.2007.
https://azertag.az/xeber


**V.Allazova**

## Provision of educational institutions with information and communication technologies


**Abstract**

The use of information and communication technologies in the training process is an important factor in improving the quality of modern education. Establishment of a high-tech national economy in our republic has become the main direction of state policy. This, in turn, necessitated the application of information and communication technologies in the education system. One of the main tasks of the education system is the development of information and communication skills in students, as well as the ability to adapt to the new conditions of the modern world. For the consistent development of this process, a special state strategy and action plan is implemented in the republic.


**В.Аллазова**

## Обеспечение образовательных учреждений информационно-коммуникационными технологиями


**Аннотация**

Использование информационных и коммуникационных технологий в учебном процессе является важным фактором повышения качества современного образования. Построение высокотехнологичной национальной экономики в нашей республике стало основным направлением государственной политики. Это, в свою очередь, обусловило необходимость применения информационных и коммуникационных технологий в системе образования. Одной из основных задач системы образования является формирование у учащихся информационно-коммуникативных навыков, а также способности адаптироваться к новым условиям современного мира. Для последовательного развития этого процесса в республике реализуется специальная государственная стратегия и план действий.